

# «BELƏ YAXŞIDI» VAQİF BƏHMƏNLI

*Vaqif YUSİFLİ*

Ədəbi dərgilərdə ən çox Vaqif Bəhmənlinin şeirlərini oxuyuram. Bu «çox» sözünü xüsusi hallandırmaq istəmirəm. Bir dəfə hansı tədbirdəsə ona çox yazmağı irad da tutdular. Amma şairə pis şeir yazdığına, öz səviyyəsini aşağı saldığına görə irad tutulmalıdı.

Vaqif-mənim adaşım doğrudan da çox yazır, amma əsas məsələ budur ki, yaxşı yazır. Mənə bağışlamadığı iki kitabı-«Hamı» və «Belə yaxşıdı» əlimin altındadır, bir də «Azərbayjan» curnalının bu ilki ilk sayında iyirmi beş şeiri.

Bu şeirləri oxuyuram və bu günümüzün ovqatını, çevrəmizdə baş verən hadisələri, olayları, günün reallıqlarını, Qarabağ harayını, Xanın səsini, Ağabala Abdullayevin «Segah»ını, insanın bu təzadlı zəmanədə ürəyiynən baş-baş verməsini, çox olmayan sevinjini, az olmayan kədərini, doğulduğu Bəhmənli kəndi ilə bağlı yaddaşından silinməyən xatirələrini izləyirəm, hələ də içində yaşayan və içini qojalmağa qoymayan sevgi duyğuları ilə baş-başa verirəm. Misralar mənə tanış gəlir-təmiz Azərbayjan dilində, bu günün şairinin ədəbi dil normalarına tam uyğun.

Min dəfə, milyon dəfə belə bir sual verilir: ŞEİR nədir? Mənjə, şeir elə hissdir, duyğudur, sözlərin addım-addım, pillə-pillə ürəkdən dodağa, dodaqdan səsə, səsdən sehrə çevrilməsidir. Şeir Füzulinin, Sabirin, Səməd Vurğunun, Şəhriyarın, Rəsul Rzanın, Bəxtiyarın, Hüseyn Arifin, Nəbi Xəzrinin, Məmməd Arazın, Ramiz Rövşənin. Vaqif Bayatlının, Zəlimxanın, Behrudinin və Vaqif Bəhmənlinin yazdıqlarıdır.

Ərşə-fərşə qapalı
ən dərin sirrə girdim - sözdə!
Atımı qoçaqlığın
güllü bağına sürdüm - sözdə!
Zər atıb bəxti uddum - sözdə.
Arazı içib qurutdum - sözdə.
Qoşun çəkib –
Təbrizi tutdum - sözdə.
Yenə bir qoşun çəkib
Şuşanı tutdum - Sözdə.
Qeyrət deyilən xislət
nə sizdədi, nə bizdə.
Sözdə, sözdə, sözdə.

Vaqif Bəhmənlinin poeziyası Sözlə davranmağın, Sözün janından musiqini, ritmi, mənanı, enercini çıxarıb şeirə çevirməyin bir öönəyidir. «Artıq çoxdan unutmuşam, həyatım mənim həyatımdır, yoxsa şeirlərimin həyatıdır»- bu da qırx ilə yaxın bir söz vurğununun gəldiyi qənaətdir. Mən Vaqif Bəhmənlinin öz etirafında şeirə nejə gəldiyini sizə xatırlatmaq istəyirəm: «Mənim, eləjə də eyni dövrdə yaradıjılığa başladığımız istedadlı qələm dostlarının istedadını görən, dəyərləndirən ustad sənətkarlar olub, özü də çox olub. Bizim Füzuli rayonunun yetirməsi olan,zəhmətkeş, istedadlı bir şair vardı-Mətləb Misir. 6-jı sinifdə oxuduğum vaxtdan ta universitetə daxil olduğum günə qədər bütün şeirlərimi məktubla ona göndərmişəm, qonşu Gejəgözlü kəndinə.O, bezib-usanmadan yolladığım «şeirləri» oxuyub düzəlişlər aparıb, məsləhətlərini yazıb, bəzi hallarda rayonda çızan «Araz» qəzetində çap elətdirib». Allah Mətləb Misirin ruhunu şad eləsin, belə bir istedadlı javana qayğı göstərib.

Vaqifin şeirləri haqqında ilk məqalələrdən birini də mən yazmışam. Onun yetmişinji illərdə, «Azərbayjan» curnalının öz qapılarını istedadlı javanların üzünə taybatay açdığı dövrdə «Heykəllər» silsiləsindən şeirləri dərj edilmişdi. O şeirlər Vaqifin böyük ədəbiyyatda ilk qələbəsi desəm,-yanılmaram.

Bəhmənli Azərbayjan şeirinin həm qoşma-gəraylı-heja, həm də sərbəst şeir məkanına yaxşı bələddir. Qoşmalarında, heja şeirlərində klassik texnolociyanı nöqtəsinəjən hifz edir, amma unutmur ki, o, XX-XXI əsrlərin şairidir və oxujuya təzə söz deməlidir..

Vaqifin «Heyrət», «Belə», «Quyu», «Xoşbəxt yalquzaq», «Jinli adam», «Kişinin göz yaşı», «Sağlığında jəza verin insanlara» şeirlərini son illərdə yazdığı ən yaxşı poeziya nümunələri hesab edirəm. Bu şeirlərdə yaşının bu çağında da axtarışdan yorulmayan bir qələm əhlinin poetik uğurları ilə qarşılaşırsan. Misal üçün, götürək «Xoşbəxt yalquzaq» şeirini. Burada lirika ilə epik xətt vəhdətdədir: şeirdə şairin bağ səyahətindən söz açılır: «Yaşıl yarpaq içində nar qızarır köz kimi, qumluqda qarağatın kilkəsi saçaq-saçaq. Uja boylu evkalipt naz eləyir qız kimi, deyir: Boyun çatırsa, gəl, belimi quj, qoçaq!» Sonra isə belə bir etiraf: «Beş addım o tərəfə, beş addım bu tərəfə...Xoşbəxtliyin özüymüş demə xırda bir bujaq. Məni yetirdin, Allah, gör nə boyda şərəfə- Nə nazir var burada, nə arvad var, nə uşaq». Çox səmimi bir etirafdır. Bu etirafa görə şairi-lirik qəhrəmanı qınamaq olmaz. O öz tənhalığına, «xoşbəxtliyin özü olan» «xırda bir bujağa» qovuşub. Burada yalquzaq səadəti bir bujaq xoşbəxtliyin rəmzinə çevrilir.



Vaqifin «Kişi ağlayanda Allah ağlayır» silsiləsindən «Kişinin göz yaşı» şeiri isə artıq daşlaşmış bir inanja («Ağlamaq arvad işidi») tamam əks bir mövqeni ifadə edir. Bu şeirdə fikir təzəliyi var. Şair ailə-məişət söz-söhbətini o çərçivədən çıxarır, bəşəriləşdirir.

Həvvadan jehizdi Adəmə günah
Kişidə qabırğa, jinah ağrıyır.
Arvad ağlayanda sevinir Allah,
Kişi ağlayanda Allah ağlayır.

Vaqif şeir mədəniyyətinə, nejə deyərlər, poetik texnologiyaya yaxşıja yiyələnən bir şairdir. Bayaq dedim: Qoşma da yazır, gəraylı da, hejanın müxtəlif ölçülərində sınayır qələmini. Xüsusilə, qoşmada müasir poetik təfəkkürün ifadəsi ilə qarşılaşırsan. Bu qoşmalar XXI əsrin şeir mədəniyyətini özündə əks etdirir qənaətinə gəlirsən. Budur, bir nümunə:

Ömür ki od aldı, əriyir şam-şam-
yağı-yalavaja paylanır jam-jam,
Fələyin qolunda səhəngdi adam-
sonda qopur qulpu, lüləyi belə...
Qafil o kəsdi ki, çörəkdən qaçır,
Eşqin yeri dardı, ürəkdən qaçır...
Mehdə hünər hanı?-
Küləkdən qaçır,
Şəlləmə belinə küləyi beləəə...
Ürəyi a tverdi..Allah, min, dedi-
Çapırsan...
Görmürsən tər içindədi?-
Allahın verdiyi yaman gündədi;
Adam əldən salmaz ürəyi belə!
Sözün şövqü dəyəsə qızıl qanayar,
Kəlməni lələdən çək, qızıldan ayır!
Mürəkkəb ayrı şey, qızıl qan ayrı-
Qandı şax saxlayan lələyi belə...
Jan ona sadağa, baş ona peşkəş,
Xas aşiq qul olmaz ötərgi eşqə!
Kimsəyə dil vermə Tanrıdan başqa,
Buraxma evinə mələyi belə!

Bəhmənlinin XXI əsrin–bu yeni dövranın-bu mərəkkəb zəmanənin ovqatını əks etdirən şeirləri də var və bu şeirlərdə İnsanın müasirliyə köklənməsi, lakin bu müasirliyi ənənəvi ruhu ilə «barışdırması», onların qəribə harmoniyası nəzərdən qaçmır. Bir şeiri var-«Eyni»- deyir ki, hər şey eynidir, yol da, yolaq da, göz də, qulaq da, səs də, qan da, dalaq da. Lakin «eyni olsa da hamı, tərsə çəkir dərs məni...anlamır, bəs niyə heç kəs məni». Plüralizm dövründə bu «eyniliklər» heç də fərdlərin –Vaqiflərin mənəvi muxtariyyətini əlindən almır.

«Belə yaxşıdı» şeirlər kitabının üz qabığında mən Vaqifin javanlıq şəkli ilə qarşılaşdım və o şəkil məndə bir nostalgiya yaratdı. O şəkildən gözlərində həyat eşqi qaynaşan, təbəssümü də ən mənalı şeiri xatırladan bir javan boylanırdı. O javanın o illərdə yazdığı sevgi şeirlərindən çiçək qoxusu gəlirdi, küləklər də o şeirlərdə zərif-zərif əsir, yol üstündə bitən güllər qızlara dönüb fağır oğlanları yoldan eləyirdi. Vaqifin sevgi şeirləri yaşanılan, duyulan hisslərin poeziyada əks-sədasıydı. İllər keçir, o sevgi ölmür, ruhda, janda yaşayır, amma ağıl örtüyünə bürünür, müdrikləşir, ürfani mahiyyət alır:

Sevgi qədim bir adətdi,
Səni jandan alır, alır...
Çox qəribə ibadətdi,
Janı dindən alır, alır...
Durma, jala baxtı baxta,
Say ki, yatır şah yataqda.
Sevgi güldü şah budaqda,
Əllə üzsən solur, solur...
Janın yetim quzusudu,
Mələrtisi ruzusudu.
Sevgi alın yazısıdı;
Məzarda da qalır, qalır...
Min desələr, yüz bilmərik,
Yol desələr, iz bilmərik
Sevgi nədi? Biz bilmərik-
Onu göylər bilir, bilir...

Bu yazını buradaja bitirmək olar. Bəhmənlinin «Sözdü vaxt, sözdü baxt, sözdü məhəbbət» misrasını yazıya epiloq seçirəm.

2021